BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2010*

# ADR YARANMASI ƏRƏFƏSİNDƏ MÖVCUD İCTİMAİ-SİYASİ ŞƏRAİT. MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏNİN GÜCLƏNMƏSİNDƏ ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN FƏALİYYƏTİ

F.M.HACIYEV

*AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu*

*fhajiyev@mail.ru*

*Məqalədə ictimai-siyasi və görkəmli dövlət xadimi Əlimərdan bəy Topçubaşovun XX əsrin əvvəllərindəki çoxtərəfli fəaliyyəti ilə yanaşı dövrün vacib və aktual tarixi hadisələrinə nəzər yetirilir, məqalədə Azərbaycanda gedən müstəqillik uğrunda mübarizə, Rusiya və Qafqazdakı hadisələrlə qarşılıqlı şəkildə araşdırılır. Beynəlxalq və regional proseslərin tərkib hissəsi kimi Azərbaycandakı mövcud ictimai –siyasi şərait tədqiq edilir.*

**Açar sözlər:** siyasət, tarix, müstəqillik, beynəlxalq, dövlət

Əlimərdan bəy Topçubaşovun və digər Azərbaycan ziyalılarının gərgin siyasi fəaliyyətinə baxmayaraq Çar Rusiyası ötən 20 ilə yaxın bir vaxtda Azərbaycanın həyatında mühüm əhəmiyyətli bir qərar qəbul etmədi. Lakin həmin dövrün tarixinə diqqət göstərir ki, Azərbaycanda müstəqil dövlətin qurulması və bu əsasda ideyaların meydana çıxması xalqın həyatının bütün sahələrinin milliləşdirilməsi yolunda onlarla ziyalılar kimi Əlimərdan bəy Topçubaşov da öz fəaliyyətini heç də dayandırmamış, əksinə çox güclü şəkildə təhqirə və tənqidə məruz qalsa da, müstəqil dövlətin qurulmasına **c**an atmışdır.

I Dünya müharibəsində tamamilə əldən düşmüş Çar Rusiyası artıq özünün axır günlərini yaşayır, bir tərəfdən daxili çəkişmələr, digər tərəfdər dünyada gedən işğalçılıq siyasəti, imperialist dövlətlərin dünyanı bölüşdürmək planı artıq hər bir dövləti düşündürməyə vadar etmişdir. Digər tərəfdən 1917-ci ildə baş vermiş Fevral inqilabı nəticəsində Rusiyada monarxiya quruluşu yıxıldı, imperiya sistemi sarsıldı. Belə bir şəraitdə müstəqillik uğrunda mübarizə daha da güclənməyə başladı. Beynəlxalq vəziyyətin daha da mürəkkəbləşməsi Ə.M.Topçubaşovun həmin vaxt qarşısına daha da ciddi məsələlər qoydu. Bu da faktdır ki, mövcud şəraitdə Azərbaycanın müstəqilliyini istiqamətləndirəcək konkret və vahid proqrama malik siyasi təşkilatın olmadığı dövrdə Əlimərdan bəy ağır, çətin və həlli mürəkkəb olan bir siyasi məsə-

ləni həll etməyi digər ziyalılarla birlikdə bütün təşkilatların birləşməsini ciddi məsələ kimi qarşıya qoymuşdur. Doğrudur, Çar Rusiyasının zəifləməsi yetişməkdə olan müstəqil dövlətçilik planının həyata keçirilməsinə şərait yaradırdı. O biri tərəfdən hətta Avropa ölkələrinin diqqətini, onların işğalçılıq planlarında Azərbaycanın gündəmə gəlməsi kimi bir siyasəti aktual edirdi. Həmin dövrdə Əlimərdan bəy Topçubaşov olduqca ağıllı addımlar ataraq istər Rusiya ilə, istərsə də Avropa ölkələri ilə ehtiyatlı davranmasını, qəbul olunan qərarlarda və diplomatik görüşlərdə düşünülmüş addımların atılmasının zəruriliyini qiymətləndirmiş, öz siyasi fəaliyyətində bu prinsipi əsas götürmüşdür. Ona görə də, Azərbaycan Demokratik Respublikasının yaranması prosesində həyata keçirilən işlər öz ardıcıllığı və effektliliyi ilə seçilmişdir.

Bu da məlumdur ki, «Bolşeviklərin proletar diktaturası», «İnqilabi zorakılıq», «Barışılmaz sinfi mübarizə», «Dünya kommunizmi» şuarları da bu fəlakətlərin genişlənməsində az rol oynamamışdır. Məhz bu dövr ona görə ağır idi ki, üçillik imperealist müharibəsi dörd ilə yaxın davam edən vətəndaş müharibəsi Rusiyada 13 milyon insanın həyatına son qoymuş, dinc əhali qırılmışdır. Bütün bunların nəticəsi kimi Rusiyada 1917-ci ildə baş vermiş fevral-burjua inqilabı dağılmaqda olan Çar Rusiyasına daha da zərbə vurdu. Belə bir şəraitdə digər bir məsələ də vardır. Mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən qonşu erməni daşnaq qüvvələri 1917-ci ilin sonundan başlayaraq növbəti dəfə dinc Azərbaycan xalqına qarşı məqsədli şəkildə qırğınlara başladı. Həmin vaxt 1917-ci ilin noyabrında Tiflisdə Zaqafqaziya komissarlığı yaradılmışdır. Az sonra onu Zaqafqaziya Seymi əvəz etmişdir. Azərbaycan ziyalıları Əlimərdan bəy Topçubaşov da daxil olmaqla çox çətinliklə mayın 27-də Azərbaycan Milli Şurasını yaratdılar və 28-də Azərbaycanın istiqlaliyyəti elan edildi (1, 44). Hələ bundan bir qədər əvvəl, 1918-ci ilin yazında daşnak silahlı qüvvələri bütün bu tədbirlərə maneçilik törətmək üçün Qarabağda, İrəvan quberniyasında, Şamaxı qəzasında yüzlərlə Azərbaycan kəndini dağıtmış, minlərcə dinc əhalinin qanını tökmüşdür. Mart ayında isə törədilmiş vəhşiliklər daha şiddətli xarakter aldı. Daşnaksutyun Stepan Şaumyan 1918-ci ilin aprelin 13-də mart qiyamı haqqında iftixar hissi ilə Moskvaya Leninə yazırdı ki, 6 min sovet və 3-4 min daşnak milli hissələri ilə Bakıda «silahlı müsəlman quldur dəstələrinin müsavat başçılarının təşkil etdikləri qiyamı yatırtmışlar». O, məqaləni «indi biz Bakıda vəziyyətin ağasıyıq» sözləri ilə qurtarırdı.

O, 1918-ci ilin yazında yuxarıda göstərdiyimiz prosesləri şərh edərək yazırdı. «Erməni daşnak partiyası öz çirkin əməllərinə haqq qazandırmaq üçün azərbaycanlıların mənfi obrazını yaratmağa çalışırlar. Bununla onlar həm Moskvanın sədaqətli xidmətçisi rolunda çıxış edir, həm də Qafqazda ermənilərin nüfüz qazanmasına çalışırdılar». Buna görə də hələ 1918-ci ilin yazında mövcud siyasi şəraiti qiymətləndirərək Əlimərdan bəy Topçubaşov ilk növbədə dövlətin, özünü xarici və daxili müdaxilələrdən qorumaq üçün hərbi qüvvəyə malik olması fikrini irəli sürmüşdür (2, 80-92). Lakin belə ağır vəziyyətdə hərbi qüvvənin təşkilinə qədər Azərbaycan Türkiyyənin köməyinə möhtac qaldı. Bu haqda Nəsib bəy Yusifbəyli yazırdı: 1918-ci ilin yazında daşnak silahlı qüvvələri şərqi Zaqafqaziyada dinc müsəlman əhalisinə qarşı təcavüz edib, böyük qırğınlar törətdiyi bir vaxtda bizim nümayəndəlik Tiflisdən Batuma gedərək, müsəlmanlar adından Türkiyə hökumətindən kömək istədi, lakin bununla belə biz heç zaman azad Azərbaycanın müstəqil ya-

şaması ideyasını nəzərdən qaçırmadıq. Azərbaycan xalqının ağır günlərində türk qardaşlarımızın etdiyi kömək təmənnasız, ədalət yolunda edilən kömək idi. Əlbəttə, bu köməyin edilməsində və Türkiyəyə müraciətdə məhz Əlimərdan bəy Topçubaşovun xüsusi təşəbbüsü və fəaliyyəti vardır. Əlimərdan bəy Topçubaşovun hətta I Dünya müharibəsi illərində ictimai – siyasi fəaliyyəti geniş arenada fəaliyyət göstərirdi. O, 1914-cü ildə Bakıda 45 nəfərdən ibarət əsasın qoyduğu «Məşvərət məclisi» bilavasitə gələcəkdə müsəlmanların həllini gözləyən problemlərin müzakirəsini diqqətdə saxlayırdı. Elə bu əsasda həmin il Dövlət Dumasına təqdim etmək üçün «Tələblər paketi» Əlimərdan bəy Topçubaşov başda olmaqla hazırlanaraq çar hakimiyyətinə göndərilmişdir (3, 18-19). O, 1916-cı ildə Tiflisdə toplaşan Qafqaz millətləri yığıncağında, 1917- ci ildə isə Bakıda və Moskvada keçirilmiş müsəlmanların qurultaylarına sədrlik etdiyi zaman milli məsələni ön plana çəkmişdir. Ana dilinin inkişafı, azad təhsil almaq, müstəqil siyasət həyata keçirmək kimi məsələləri Əlimərdan bəy Topçubaşov müntəzəm diqqətdə saxlamışdır. O bu ideyaların bütün Rusiyaya yayılmasını təmin, hətta, günü-gündən də həyata keçməsini tələb edirdi. Rusiyada 1917-ci Fevral inqilabı nəticəsində mütləqiyyət üsul idarəsinin devrilməsindən sonra yaranmış müvəqqəti hökumət 1917-ci il 2 mart tarixli bəyannaməsində yuxarıda göstərilən tələbləri nəzərə almaq məcburiyyətində qalaraq demokratik dəyişikliklər edəcəyini – o cümlədən söz, mətbuat, yığıncaq, ittifaq, tətil və s. kimi siyasi azadlıqlar veriləcəyini, silki, irqi, milli, dini bərabərsizliklərin aradan qaldırılacağını da elan etdi hətta ümumi, bərabər, müstəqil və gizli səsvermə yolu ilə Müəssislər Məclisi çağırılacağına da söz vermişdir.

Lakin tezliklə bu vədlərin tətbiqi prosesi heçə endirildi. Baş vermiş uğursuz əməliyyatlar Azərbaycan üçün də öz mənfi nəticələrini göstərdi. Həmin dövrdə – 1917-ci il iyul ayında Petroqradda baş verən hadisələr hökumətdə böhran yaratmışdır. Avqustun 12-15 də hökumətin Moskvada Dövlət Şurasının müşavirəsini çağırması ölkədəki ağır vəziyyəti müzakirə etmək idi (4, 7).

Prosesin bu cür getməsi Rusiya müsəlmanlarının 8 demokratik təşkilatının qabaqcılı kimi Əlimərdan bəy Topçubaşovun həyata keçirməyə çalışdığı ideyaların ləngiməsinə öz təsirini göstərdi. Həmin Dövlət Şurasının iclasında o, cəsarətlə 8 təşkilatın – Ümumrusiya Müsəlman Şurası, Ümumrusiya Müsəlman Hərbi Şurası, Zaqafqaziya Müsəlmanları Mərkəzi Komitəsi funksiyasını yerinə yetirən Müsəlman İctimai Təşkilatlarının Bakı Komitəsi, Şimali Qafqaz və Dağıstan dağlılarının Birləşmiş Mərkəzi Komitəsi, Türkistan Ölkə Şurası, Krım Vilayət Komitəsi, Qırğızıstan və Başqırdıstan vilayəti Şuraları adından onların ümumi mövqeləri barədə fikirlərini elmi-nəzəri cəhətdən yığcam şəkildə əsaslandıraraq geniş nitq söyləmişdir. Həmin çıxışda Əlimərdan bəy Topçubaşov xüsusilə Rusiyada «Dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratlarını təyini şüarını qoyduğunu» da bəyan etmişdir. Bu bəyanatın fəlsəfi mahiyyəti ondan ibarətdir ki, bütün Rusiyada yaşayan müsləmanların əqidə, din və mədəni asılılığı ləğv olunmalı, azad şəkildə öz müqəddəratlarını təyin etmək hüququ qazanmalıdırlar. Öz çıxışını o bu sözlərlə bitirmişdir: «Onlar, yəni müsəlmanlar əmindirlər ki, azad, demokratik Rusiya özündə bütün xalqların, ö cümlədən də, müsəlman xalqlarının bərabərlik və qardaşlığının bərqərar ediləcəyi gün uzaqda deyil… O vaxt biz də bir səslə sevinclə deyəcəyik: Günəş Şərqdən doğur!». Əlimərdan bəy Topçubaşov hər an Azərbaycanın müstəqil dövlət olması uğrunda ictimai siyasi mübarizəni gücləndirirdi (4, 9). Lakin 1917- ci

ilin ortalarına doğru baş vermiş proseslər onun mübarizəsini gərginləşdirmişdir. O 1917- ci ilin sonuna qədər Bakıda Azərbaycan Milli Komitəsinə sədrlik etmiş, elə həmin il Gəncədə Rusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir. Burada da o dəyərli işlər aparmış, bir sıra konkret əməli işlər görmüşdür. Qeyd edək ki, az bir vaxtdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və təşkilində məsul siyasi və dövləti vəzifələri tutmasına baxmayaraq, əslində bu görkəmli şəxsiyyət ömrünün sonuna kimi heç bir siyasi partiyanın üzvü olmayıb. Sonrakı prosesdə 1918-ci il mayın 28- də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasında, onun təşkilində, habelə müstəqil cümhuriyyətin bütün dünyaya tanıdılmasında Əlimərdan bəy Topçubaşov əvəzsiz xidmətlər göstərdi. M.Ə.Rəsulzadənin dediyi kimi, Əlimərdan bəyin Rusiya türklərinin milli hərəkatındakı böyük rolu, nəhəng fəaliyyəti ilə Axundzadə Mirzə Fətəli, Zərdabi Həsən bəy və Qaspralı İsmayıl mirzələrin canlandırdıqları milli-kültür hərəkatı siyasi məzmun kəsb etdi (6, 33). Beləliklə, Azərbaycanın müstəqil dövlət olması yolunda var qüvvəsi ilə çalışan dövrünün tanınmış dövlət xadimi Əlimərdan bəy Topçubaşov öz siyasi fəaliyyətini Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində daha da genişləndirmiş, əvvəlki ictimai siyasi fəaliyyətindən fərqli olaraq o, müstəqil Azərbaycan Cümhuriyyətinin yaranması, onun təhlükəsizliyinin qorunması, eləcə də beynəlxalq arenada tanıdılması haqqında çox gərgin iş aparırdı. Biz bunu ADR-in yaranmasından sonra həyata keçirilən fəaliyyətində açıq-aşkar görürük. Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasını o, bütov bir xalqın bəşəriyyətdə ən böyük qələbəsi kimi düşünürdü. Lakin Cümhuriyyətin yaranması ilə yurdumuzun münaqişə və müharibə meydanına çevrilməsi reallığını və təhlükəsini hər an hiss edirdi. Respublikanın yaranma ərəfəsində bütün bu qəsdlərin qarşısını almaq Əlimərdan bəy Topçubaşovu düşündürən ən ağrılı məsələ idi.

## ƏDƏBİYYAT


1. ADR: tarixi, ictimai, siyasi və ədəbi-mədəni həyat // Məqalələr toplusu, Bakı: 1992, 214 s.
2. Balayev A. Azərbaycan milli azadlıq hərəkatı: 1917-1920-ci illər. Bakı: Elm, 1990, 164 s.
3. Əhmədov Ə. Azərbaycanda milli-dövlətçilik ənənələrinin tarixi kökləri. Dirçəliş 2002, iyun, № 53, s.38-43.
4. Əliyev M. Azərbaycan Respublikası Gənclik jurnalı. Bakı: 1999, №4, s.5-7.
5. Paşayev A. Cümhuriyyətin görkəmli xadimi, diplomat Əlimərdan bəy Topçubaşov // Dirçəliş, 2003, iyun, № 64. s.97-102


## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В ПЕРИОД ОБРАЗОВАНИЯ АДР. ДЕЯТЕЛЬНОСТЬ А.ТОПЧУБАШЕВА ЗА УСИЛЕНИЕ БОРЬБЫ ЗА НЕЗАВИСИМОСТЬ


**Ф.М.ГАДЖИЕВ**


### РЕЗЮМЕ


Исследование национального, социально-политического и философского мировоззрений видного общественного и государственного деятеля Азербайджана начала XX века Алимарданбека Топчубашева очень актуально с точки зрения изучения истории и общественно-политических процессов. В статье изучаются мысли и соображения о независимости и целостности территории Азербайджана, высказываемые в России и на Кав-

казе, а также в партийных организациях и выступлениях перед международным сообществом. В статье затронут вопрос освещения факторов, явившихся причиной отношений между соседними странами как в прессе, так и надлежащих выступлениях.

**Ключевые слова:** политика, история, независимость, международных, государственных

## SOCIO-POLITICAL SITUATION IN THE PERIOD OF ESTABLISHMENT OF ADR. A.TOPCHIBASHOV'S SERVICES IN REINFORCEMENT OF STRUGGLE FOR INDEPENDENCE

**F.M.HAJIYEV**

### SUMMARY

The study of national socio-political and philosophical outlook of the eminent social and state figure of the XX century, Alimardanbay Topchubashov is actual from the point of history and socio-political processes. The article studies the ideas and considerations on the independence and integrity of the Azerbaijan territory voiced in Russia and the Caucasus, as well as in party organizations and speeches before the interinational community. The question of elucidating factors causing deterioration of relations with the adjacent countries both in the press and relevant speeches is covered in the article as well.

**Key words:** politics, history, independence, international, state